# ŞƏFFAFLIQ VƏ OBYEKTİVLİK BAŞLICA MEYARDIR

Gəncə şəhərində fəaliyyət göstərən, yüksək mütəxəssislər hazırlığı ilə tanınan zəngin və şərəfli tarixə malik Gəncə Dövlət Universitetində yarandığı dövrdən günümüzə qədər, yetərincə yüksəkixtisaslı kadr hazırlanmışdır. Onun bir çox yüksəksəviyyəli kadrları Azərbaycan Respublikasının Dövlət quruculuğunda və elmi işlərdə böyük zirvələr fəth edir, Azərbaycanın çiçəklənməsinə öz töhfələrini verməkdədir. Ənənəsinə sadiq qalan Gəncə Dövlət Universitetində yenə payız sessiya imtahanlarının müvəffəqiyyətlə keçirilməsi üçün şəffaflığın, obyektivliyin və digər məsələlərin təmin edilməsi üçün sessiyanın başlanması ərəfəsində universitetin rektoru professor Yusif Yusibov tələbələrlə görüşmüş, onları dinləmiş, fakültə dekanları, kafedra müdirləri, akademik məsləhətçilər (tyutorlar), aidiyyəti struktur bölmələrin rəhbərlərinin iştirakı ilə geniş iclas keçirmiş, sessiyanın mütəşəkkil təşkili və keçirilməsi ilə bağlı konkret tapşırıqlar müəyyənləşdirilmişdir. Gəncə Dövlət Universitetində (GDU) 2019-2020-ci tədris ilinin qış imtahan sessiyasının gedişini müşahidə etmək məqsədi ilə KİV nümayəndələrinin iştirakı ilə mediatur təşkil olunmuşdur. Mediaturda tələbələrin valideynləri və ictimaiyyət nümayəndələri də iştirak etmişlər. Media nümayəndələri imtahan otaqlarında olub, ayrı-ayrı fənlər üzrə tələbələrin eyni vaxtda biliyinin yoxlandığı test imtahan prosesini izləmişlər.

Universitet rektorunun müşaviri Asif Cavadov, Universitetin Elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə və humanitar məsələlər üzrə prorektor Gülsüm Fətəliyeva valideynlərə və KİV təmsilçilərinə imtahan prosesi barədə ətraflı məlumat vermiş, onları maraqlandıran sualları cavablandırmışlar. Ümumilikdə 6 min tələbənin biliyinin yoxlanacağı imtahan sessiyası həm əyani, həm də qiyabi şöbə üzrə yazılı, test üsulu və qabiliyyət üzrə olmaqla yanvarın 31-dək davam edəcək.

İmtahan sessiyasının mövcud normativ sənədlərə uyğun təşkili məqsədilə universitet rəhbərliyi tərəfindən xüsusi komissiya yaradılmışdır.

GDU-da 2019-2020-ci tədris ilinin qış semestrinin imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədi ilə imtahan sessiyası dövründə yarana biləcək neqativ halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun keçirilməsinə kömək etmək üçün rektorun əmrinə müvafiq olaraq tədris işləri üzrə prorektorun sədrliyi ilə sessiyanın gedişində daxil olan müraciətlərin operativ şəkildə araşdırılmasını təmin etmək məqsədilə qərargah yaradılıb, xüsusi otaq ayrılıb, telefonla təchiz edilib. “Qaynar xətt”ə universitetin internet ünvanından birbaşa onlayn formada müraciət etmək imkanı da yaradılıb. Eyni zamanda, universitetin gdu.edu.az saytında yerləşdirilmiş telefon nömrələri, rəsmi “facebook” ünvanı olan “Gəncə Dövlət Universiteti”, mail@gdu.edu.az ünvanlı elektron poçtu elan edilmişdir. Göründüyü kimi, obyektivliyin, şəffaflığın və demokratiyanın təmin olunması üçün maksimum tədbirlər görülmüşdür. Bütün bunların nəticəsidir ki, hazırda imtahanlar yüksək səviyyədə gedir, gün ərzində tələbənin biliyi qiymətləndirilir.



Universitetin rektorunun müşaviri Asif Cavadov mediatur iştirakçılarına hər il infrastrukturun yenilənməsi, maddi-texniki bazanın zənginləşdirilməsi istiqamətində aparılan işlər, eləcə də ali təhsil müəssisəsində yaradılan idarəetmə, tədris və imtahan prosesi, universitetin beynəlxalq nüfuzunun artırılması, Avropanın qabaqcıl təhsil ocaqları ilə ikitərəfli qarşılıqlı əməkdaşlıq istiqamətləri, həyata keçirilən səmərəli beynəlxalq layihələr və onların müsbət nəticələri haqqında məlumat verib.

Sonra müşavir mediatur iştirakçılarını auditoriyaya dəvət etdi. Audutoriyada tam sakitlik idi, tələbələr düşünür və qeydiyyat aparırdılar. Onu xüsusilə qeyd etmək lazımdır ki, artıq tələbələr burada yaradılmış münbit şəraitdən lazımınca bəhrələnir, oxumağın əsas meyar olduğunu dərk edir, imtahanların tam şəffaf, obyektiv və qərəzsiz keçirildiyindən məmnun qalırlar. İmtahan zalında həyəcanlı anlar yaşanırdı . Heç kəs bir-birinə müdaxilə etmədən öz biliyini nümayiş etdirmək üçün real imkandan istifadə edir, oxuduqlarını və müəllimlərinin tövsiyələrini xatırlamağa çalışırdırlar. Qeyri-ixtisas sahibləri olan imtahan nəzarətçiləri öhdələrinə düşən vəzifəni vicdanla yerinə yetirirdilər. Söhbət zamanı onlar bu metodun tətbiq edilməsini yüksək qiymətləndirərək birmənalı bildirdilər ki, universitet rəhbərliyinin qətiyyəti və cəsarəti ilə artıq son illərdə imtahanlar belə şəffaf, obyektiv, qərəzsiz və aşkarlıq şəraitində keçirilir, heç bir neqativ haldan söhbət gedə bilməz, bu isə tələbələr üçün çox önəmlidir. Elə yenicə imtahan auditoriyasından çıxan biologiya və kimya ixtisasının V kurs tələbəsi Günel Oruclu və həmin ixtisasın V kurs tələbəsi Təranə Nəbiyeva ilə söhbət yerinə düşdü. Onlar birmənalı bildirdilər ki, imtahanların kompüter vasitəsilə verilməsini bütün tələbələr alqışlayırlar, çünki, burada neqativ hal qeyri-mümkündür. Yaradılan şəraitə şəffaflığa və obyektivliyə görə universitet rəhbərliyinə minnətdarlıq etdilər. Auditoriyadan çıxanda valideynlərdən bir neçəsi mənə yaxınlaşıb, imtahanın obyektivliyindən, universitet rəhbərliyinin qətiyyəti və son dərəcə ciddiliyi ilə son illərdə universitetdə yaratdığı şəffaflıqdan danışdılar, təhsilə göstərilən sonsuz diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə valideynlər adından dərin minnətdarlığını ifadə etdilər.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

Respublika.- 2020.- 26 yanvar.- S.5.